# Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)

**Təsdiq edirəm:**
**"Biznes və logistika" kafedrasının müdiri**
**i.e.n. dos. Əliyev M.Ə.**
**05 sentyabr 2024-cü il**

## "İDARƏETMƏ NƏZƏRİYYƏLƏRİ" fənni üzrə
## İŞÇİ TƏDRIS PROQRAMI
## (Sillabus)

### I. Fənn haqqında məlumat

| | |
|---|---|
| **Fənnin kodu:** | **00380** |
| **Fənnin növü:** | **əsas** |
| **Tədris ili:** | **2024/2025** |
| **Tədris semestri:** | **yaz** |
| **Fakültə:** | **Biznes və menecment** |
| **Qrup:** | **706** |
| **Tədris yükü:** | **60 saat (mühazirə/məşğələ -30/30)** |
| **Kredit sayı:** | **6 (altı)** |
| **Kafedra:** | **Biznes və logistika** |

### II. Müəllim haqqında məlumat


| | |
|---|---|
| **Fənni tədris edən müəllim:** | **Aynur Zeynalova (baş müəllim)** |
| **E-mail ünvanı:** | **ayn.zeynalova@gmail.com** |
| **İş telefonu:** | **(012) 4403367** |

Bu sillabus “Menecment” kafedrasının baş müəllimi, Zeynalova Aynur Teymur qızı tərəfindən hazırlanmışdır.

## III. Fənnin təsviri

Bu fənn, ümumi (əsas) fənnlər siyahısına daxil olmaqla, bakalavr pilləsində təhsil alan tələbələrə menecmentin ayrı-ayrı nəzəriyyələri və məktəbləri haqqında zəruri baza biliklərini təqdim edir, habelə onlara idaərəetmənin nəzəri məzələlərini problemlərini anlamaq üçün lazım olan analitik bacarıq və vərdişlər aşılayır.

Bu fənn menecmentin əski və çsqdaş nəzəriyyələrini öyrənir. Postindustrial dövrün qeyri-müəyyənliklərinə, gözləniməyən dəyişikliklərinə adekvat cavabın verilməsi menecerin təşkilatçılıq və uzaqgörənlik məharətindən asılıdır.

Qloballaşma iqtisadi, sosial və digər prosesləri ildırım sürəti ilə yaymaqla müxtəlif ölkə iqtisadiyyatlarını daha sıx şəkildə bir-birinə bağlayır. Belə şəraitdə işgüzar təşkilatın fəaliyyət strategiyasının seçilməsi menecerin səriştəli, analitik təhlil etmə qabiliyyətli və kommunikabelli olmasını tələb edir.

«İdarəetmə nəzəriyyəsi » fənni məhz bu problemlərin nəzəri məsələlərini araşdırır.

## IV. Fənnin məqsədi və vəzifələri

İdaərətmə nəzəriyyəsi fənninin tədrisinin başlıca məqsədi tələbələrdə idarəçilik təfəkkürünü formalaşdırmaq və inkişaf etdirməyin nəzəri və metodoloji hissəsini aşılamaqdan ibarətdir. Başqa tərəfdən bu fənnin əsas hədəfləri sırasında menecmentin keçdiyi tarixi dövrlər, elmi məktəbləri, nəzəriyyələri, metodları, funksiyaları, müasir təşkilati quruluş formaları, heyətin idarə edilməsi və s. haqqında ətraflı biliklərə yiyələnməsini göstərmə fənnin əsas hədəflərdəndir

Fənnin tədrisi qarşısında duran vəzifələr aşağıdakılardır:

- əsas idarəetmə nəzəriyyələri və onların xüsusiyyətləri barədə tələbələrdə tam təsəvvür formalaşdırmaq;
- menecment haqqında əsas elmi yanaşmaları və modelləri tələbələrə təqdim etmək;

- menecment sistemi, funksiya və metodları, idarəetmə strukturunun formalaşmasına təsir göstərən amilləri və belə təsirlərin qiymətləndirlməsi üsullarını başa salmaq;
- müxtəlif idarəetmə məktəblərinin əsas elmi yanaşmalarını tələbələrə aşılamaq;
- idarəetmənin qanunlarının, yeni paradiqmasının, prinsiplərinin və modellərinin tələbələrə sərgilənməsi.

**V. Öyrənmənin nəticələri:**

Kursun tədrisi başa çatandan və bütün mövzular mənimsənildikdən sonra tələbələr:

**Bilməlidirlər:**

- İdarəetmə nəzəriyyələrini;
- İdarəetmə məktəblərinin növlərini və onların əsas xüsusiyyətlərini;
- Müasir idarəetmənin nəzəri problemlərinin təcrübəyə təsirini;
- Nəzəri bilikləri təcrübəədə istifadə etməyi;
- Menecmentin müasir modellərinin növlərini  müəyyən edən şərt və amilləri;
- İdarəetmənin yeni paradiqmsını nümünələr əsasında izah etməyi;
- İdarəetmə qanunlarının və prinsiplərinin idarəetmə sisteminin qurulmasına təsirini;
- İdarəetmənin milli xüsusiyyətlərini.

**Bacarmalıdırlar**:

- müxtəlif idarəetmə nəzəriyyələrində olan yanaşmaları fərqləndirməyi;
- müxtəlif alimlərin ayrı-ayrı idarəetmə məktəblərinin yaranvasında rolunu;
- idarıetmənin məktəblərinin fərqəndirici xüssuiiətlərini ortaya çıxarmağa;
- idarəetmənin yeni paradiqmasını köhnə paradiqmadan fərqləndirməyi;
- idarəetnənin ayrı-ayrı modellərinin əsas mahiyyətini və fərqləndici xüsusiyyətlərini konkret sahələrə tətbiq etməyi;
- yeni idarəetmə prinsiplərinin klassik idarəetnə prinsipləri əsasında qiymətləndirməyi;
- ayrı-ayrı aparıcı ölkə menecmentlərinin əsas xüsusiyyətlərini.

## VI. Kursun proqramı

Proqram 15 mühazirə, 15 seminar olmaqla 30 saata əsaslanır. Proqram mühazirələr, müzakirələr, tapşırıqlar və məşqlər, qrup işi, praktik məşğələlər və iş müzakirəsini əhatə edir.

## VII. Fənnin mühazirə mövzuları

Fənnin tədrisi prosesində tələbələrə aşağıdakı mövzularda mühazirələr təqdim ediləcək:

1. İdarəetmə nəzəriyyələrinin təşəkkül tapması və inkişafı
2. Menecmentin "klassik" məktəbi
3. Menecmentin "insani münasibətlər" məktəbi
4. Menecmentin "insani münasibətlər" məktəbi
5. Menecmentin"sosial sistemlər" məktəbi
6. Menecmentin"empirik" məktəbi
7. İdarəetmənin yeni paradiqması və prinsipləri
8. Koordinasiya, suberdinasiya və reordinasiya idarəetmənin modellrəi kimi
9. Amerika menecmentinn müasir xüsusiyyətləri
10. Yaponiya menecmentinn müasir xüsusiyyətləri
11. Qərbi Avropa menecmenti
12. İdarəetmə qanunları
13. Təşkilatlar nəzəriyyəsi
14. Özünüidarəetmə
15. İdarəetmənin səmərəliliyi

## VIII. Prerekvizitlər

Yoxdur

## IX. Fənnin tədris metodologiyası

Bu fənnin tədrisi prosesində mühazirələrin oxunması, interaktiv müzakirələrin aparılması, komanda şəklində layihələrin icrası, kiçik qruplarda iş, işgüzar oyunlar, xüsusi nümunələrin (keys-stadilər) öyrənilməsi və təhlili, esse yaxud sərbəst işlərin yazılması və test tapşırıqların yerinə yetirilməsi kimi geniş çeşiddə tədris və təlim üsullarından istifadə edilir.

Bundan əlavə tədris və təlim prosesində xarici və yerli iqtisadi ədəbiyyatdan, habelə beynəlxalq və yerli mediadan (internet resurslarından) götürülmüş məqalələrin, real nümunələrin və xüsusi keyslərin təhlilinə, müzakirəsinə və məntiqi nəticələr çıxarılmasına xüsusi diqqət ayrılacaq. Verilən biliklərin tətbiqi bacarıqlarının formalaşdırılması üçün tələbələr mövzuya uyğun seçilmiş tapşırıqları həll edəcəklər. Hər bir yeni mövzunun tədrisi öncəsi tələbələr müəyyən olunmuş mətnləri və onlara təqdim edilmiş (tapşırılmış) digər qiraət materialları ilə tanış olmalıdırlar.

## IX. Fənnin mühazirə mətnləri

Fənnin bütün mövzuları üzrə mühazirə mətnləri, müzakirə sualları və tapşırıqlar, habelə müxtəlif növ məşğələ materialları elektron formatda Universitetin saytında "Virtual universitet" bölməsində (unec.edu.az) yerləşdirilir.

## X. Əsas dərslik və dərs vəsaitləri


1. Şahbazov K. A., Məmmədov M.H, Həsənov H.S, (dərslik ) Bakı 2007
2. Граждан В. Теория управление. Москва 2007, 2016
3. Кравченко А.И. - История менеджмента. Москва 2011.
4. Гвишиани Д.М. Организация и управление. Москва 1972.
5. Ю.В.Васильева и др. – Теория управления М. 2007
6. Ю. Н. Лапыгин. Теория управления
7. Теория управления :Менеджмент. Христоматия в трех частях. сост: Черныш Л. П., Ермолович Е.М.
8. Христоматия в трех частях С. Петербург 2017


Hər bir mövzu ilə bağlı əlavə ədəbiyyat və oxu materialları mühazirədə qeyd olunur.

## XI. Mövzuların məzmunu və tədris-tematik bölgüsü

| Həftə | Mövzuların adı | Mövzunun əsas məzmunu | Ədəbiyyat |
|---|---|---|---|
| 1 | **İdarəetmə nəzəriyyələrinin təşəkkül tapması və inkişafı** | İdarəetmə hansı zərurətdən yaranmışdır? İnsanlar nə üçün qrup-təskilat halında sosiallaşırlar? İdarəetmə sistemi nədir? Təşkilatın əlamətləri hansılardır? Kurs nəyi öyrənir? | 1. 3, 2.1 ,3.1 |
| 2-3 | **Menecmentin "klassik" məktəbi** | F.Teylor menecmentin yaradıcı kimi, İnzibatçılıq nəzəriyyəsi, M. Veberin nəzəri fikirləri, Elmi nenecmentin sistemləşdirilməsi | **1** (fəsil 3)<br>**4** (fəsil 2.)<br>5 (fəsil 9); |
| 4 | **Menecmentin "insani münasibətlər" məktəbi** | Hotoron təcrübəsi, E. Moyo "İnsani münasibətlər" məktəbinin yaradıcısı kimi, formal və qeyri fomal təşkilatlar, münaqişə və əməkdaşlıq | **1 (**fəsil 2 );<br>**2** (fəsil 3.);<br>**3** (fəsil 2 )<br>4 (fəsil 2.) |
| 5 | **Menecmentin"sosial sistemlər" məktəbi** | Təşkilat "sosial sistem kimi", əlaqələndirici proseslər, Ç. Bernardın Parsosun və S. Saymonun nəzəri fikirləri | **2**(fəsil 4 );<br>**3**(fəsil 2);<br>5 (fəsil 4) |
| 6 | **Menecmentin"empirik" məktəbi** | Empirik yanaşma nədir? Empirik qiymətləndirmə nəyi verir? Məktəb necə yaranıb, məktəbin əsas doktrinası nədir? Məktəbin əsas üzvlərinin nəzəri fikirləri | 2,3<br>**6** (fəsil 4 və 5);<br>**3** (fəsil 2); |
| 7 | **İdarəetmənin yeni paradiqması və prinsipləri** | Paradiqma nədir?, yeni elmi inkişaf paradiqması, Yeni menecment paradiqmanın əsas qayəsi, yeni prinsiplər | **4**(fəsil 7);<br>**6** (fəsil 7 ); |
| 8 | **Koordinasiya, suberdinasiya və reordinasiya idarəetmənin modellrəi kimi** | İdarəetmə modeli nədir? Koordinasiya modeldir ya funksiya? Koordinasiya digər modellərdən nə ilə fərqlənir suberdinasiya iyerarxiyadırmı? Reordinasiya yerli sahələrdə hansı misallar göstərmək olar? | **3(**fəsil 7);<br>**7** (fəsil 8) |
| 9 | **Amerika menecmentinn müasir xüsusiyyətləri** | Amerika menecmentinin əsas dayaları, Korporasiya amerika biznesin əsas forması kimi, Qlobal | **8**(fəsil1); |

| | | | |
|---|---|---|---|
| | | menecer, amerikan menecerinin əsas keyifiyyətləri | |
| **10** | **Yaponiya menecmentinn müasir xüsusiyyətləri** | Yapon menecmentinin əsas dayaqları: ömürlük muzd, kollektivçilik və staja görə əmək haqqı sistemi, yapon ratasiyası, "dəqiq vaxtında" sistemi, "keyfiyyət dərnəkləri" | **8**(fəsil2 ); |
| **11** | **Qərbi Avropa menecmenti** | Alman menecmenti, Fransa menecmenti, İngiltərə menecmenti. Onların oxşar və fəqrləndirici xüsusiyyətləri | **8** (fəsil3 ); |
| **12** | **İdarəetmə qanunları** | İdarəetmə qanunu nədir? Qanunlar idarəetmə sistemlərini necə formalaşdırırlar qanunların növləri və əsas mahiyyətləri | **3** (fəsil 6); |
| **13** | **Təşkilatlar nəzəriyyəsi** | Təşkilat və menecment, təşkilatın əsas əlamətləri, təşkilat nəzəriyyləri | **3** (fəsil 10) 4.5, |
| **14** | **Özünüidarəetmə** | Özünüidarəetmənin növləri. şəxsi özünüidarəetmə, şirkətin özünüidarəetməsi yerli Özünüidarəetmə | **1** (fəsil16);<br>**2** (fəsil 18);<br>**3** (fəsil 13) |
| **15** | **İdarəetmənin səmərəliliyi** | Menecmentin səmərəliyi nədir? Onun əsas meyarları. Məhsuldarlığı idarətmədə necə yaranmaq olar | **2 (**fəsil 11);<br>**3** (fəsil 11) |
| | **Yekun imtahan** | | |

## XII. Seminar-məşğələlər: hazırlıq və qiymətləndirmə

Seminar-məşğələ dərslərində tələbə öz fikirlərini məntiqi ardıcıllıqla ifadə və izah etməyi, habelə arqumentlərlə əsaslandırmağı bacarmalıdır. Buna nail olmaq üçün tələbə:

1) Seminar məşğələsinin hər bir mövzusu üzrə müzakirəyə çıxarılan suallarla diqqətlə tanış olmalı;
2) Müvafiq mühazirə materiallarını diqqətlə öyrənməli;
3) Mövzu üzrə tövsiyə edilən ədəbiyyatı oxumalı və öyrənməli;
4) Seminar məşğələsində müzakirəyə çıxarılan hər bir sual üzrə qısa çıxış hazırlamalı;
5) Mövzu üzrə verilən praktik tapşırıqları və məsələləri yerinə yetirməklə praktik bacarıqlara yiyələnməlidir.

Tələbənin məşğələdəki hər bir cavabı 10 ballıq sistem üzrə 0-10 bal arasında (maksimum 10 bal olmaqla) qiymətləndirilir. Semestrin sonunda smestr ərzində tələbənin bütün cavab balları toplanır və tələbənin cavablarının ümumi sayına bölünməklə orta qiymət (bal) hesablanır.

**XIII. Sərbəst işlər: nəzərdə tutulmayıb**

**XIV. Sərbəst işlər. Fənn üzrə qiymətləndirmə**

| | | |
|---|---|---|
| Tələbələrin sərbəst (qrup) işinə görə | - | - |
| Seminar (məşğələ) dərslərinin nəticələrinə görə | 20 bal | 20 % |
| Ara imtahan | 30 bal | 30 % |
| Yekun imtahan | 50 bal | 50% |
| Semestr nəticəsinə görə | 100 bal | 100% |

**Semestr nəticəsinə görə qiymətləndirmə (imtahan və imtahana gədər toplanan ballar əsasında)**

| | | |
|---|---|---|
| 91-100 bal | əla | A |
| 81-90 bal | çox yaxşı | B |
| 71-80 bal | Yaxşı | C |
| 61-70 bal | Kafi | D |
| 51-60 bal | qənaətbəxş | E |
| 51 baldan aşağı | qeyri-kafi | F |

İmtahan test üsulu ilə keçiriləcəkdir. Test 50 sualdan ibarət olacaqdır. Hər bir sual 1 baldır. Səhv cavablanan suallar, düzgün cavablanan sualların ballarını silmir. İmtahanın nəticələrinin qiymətləndirilməsi ilə baglı tələbənin hər-hansı şikayəti olarsa, Universitetdə müəyyən olunmuş ümumi qaydalar əsasında Apellyasiya Komissiyasına müraciət edə bilər.

**Qeyd:** Imtahanda minimum 17 bal toplanmasa, imtahana qədər yığılan ballar toplanmayacaq.



**Tərtib etdi:** **b.\m. Zeynalova A.T.**